ƏKBƏR N.NƏCƏF

# XAQANLIĞIN VARİSLƏRİ

/ VIII–XI ƏSRLƏRDƏ TÜRK DÜNYASI /

II KİTAB

qanun nəşriyyatı

**Əkbər N.Nəcəf.**
**Xaqanlığın varisləri** *(VIII–XI əsrlərdə Türk Dünyası). II kitab*
Bakı, Qanun Nəşriyyatı, 2024, 264 səh.

Janr: non-fiction/tarix
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.03.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-921-0

© Qanun Nəşriyyatı, 2024
© Əkbər N.Nəcəf, 2024

Onlar hunların min il səltənəti olmuş ərazilərdə "Türk dünyası"nı inşa etdilər. Asiyanın ucsuz-bucaqsız torpaqlarında iki əsr hökmran oldular. Koreyadan Bizansa, Sibirdən Xorasana və Azərbaycana qədər geniş bir coğrafiyanı öz bayraqları altında birləşdirdilər. Çin, Hind, Sasani, Roma mədəniyyətlərini bir-birinə bağlayan qlobal ticarət münasibətlərini yaradaraq Dünya tarixində əhəmiyyətli rol oynadılar. İpək Yolu ticarətini əsrlər boyu idarə etdilər.

Monoqrafiya Türk xaqanlığı dövründə geniş Asiyada baş verən hərbi-siyasi, iqtisadi və mədəni proseslərdən bəhs edir. İlkin orta əsrlərdə Türk siyasi-mədəni kimliyinin tarixini işıqlandırır.

# İÇİNDƏKİLƏR

*Qısa açıqlama* ........................................................ *6*

*Giriş* ........................................................................ *9*

**VIII əsrdə Türk yurdu və xalqı .................................. 9**

Türk eli və əhalisi ....................................................... 9

Türk xalqı.................................................................. 36

*Birinci fəsil*

**Şərq türkləri ............................................................ 80**

Türkiş xaqanlığı ......................................................... 80

Basmıl xaqanlığı ........................................................ 99

Qarluq yabquluğu ..................................................... 103

Uyğur xaqanlığı ........................................................ 109

Qırğız xaqanlığı ........................................................ 121

Oğuzlar .................................................................... 126

Tiginlər.................................................................... 133

Kimək xaqanlığı........................................................ 143

*İkinci fəsil*

**Qərb türkləri .......................................................... 154**

Xəzər xaqanlığı ........................................................ 154

Peçeneqlər........................................................................197
Torklar və ya Uzlar (qaqauzlar)......................................209
Bərəndeylər......................................................................214
Xələclər..............................................................................218
Qarapapaqlar....................................................................224

**İstifadə olunan ədəbiyyat ..............................................228**

## *Qısa açıqlama...*

VIII əsrin ortalarında Türk xaqanlığının torpaqlarında hər biri bir imperiya böyüklüyündə yeddi hərbi-siyasi gücün nəzarəti altına keçdi. Sibir və Mərkəzi Asiya torpaqları kiməklərin, Uraldan Macarıstana qədər Şərqi Avropa xəzərlərin, Türk xaqanlığının mərkəzi torpaqları uyğurların, Aral gölü və Sırdərya ətrafındakı ərazilər oğuzların, Yenisey ətrafı qırğızların, Altay bölgəsi qarluqların, Yeddisu bölgəsi türkişlərin nəzarəti altına keçdi. Onlardan türkişlər və xəzərlər Əməvi xilafətinin yayılmasının qarşısını aldılar və müsəlman ərəblərin irəliləməsini dayandırdılar.

Türk xaqanlığının süqutu səssiz olmadı. Dünya yeni siyasi-etnik hərəkətlənmələrə məruz qaldı. Qədim Kanq-kü (Səmərqənd) torpaqlarından çıxan peçeneqlərin Balkanlara qədər hücumları slavyan və Roma-german xalqlarını uzun illər məşğul etdi. Eyni tarixdə macarlar Avropa səhnəsində göründülər. Macar istilası, fransız tədqiqatçı Mark Bloxun da qeyd etdiyi kimi, "Avropa qitəsinə son coğrafi şəklini" verdi. Davamında kuman-qıpçaq tayfaları Xəzər və Qara dənizin şimalını, Azərbaycan və Şimali-Şərqi Anadoluya qədər Qafqazı nüfuzu altına aldılar. Bütün bu hadisələr IX əsrdə formalaşmaqda olan dünyanın yeni siyasi-mədəni və ictimai-iqtisadi münasibətlər sisteminə dərindən təsir etdi. Yaranan

dünya təsəvvürü min ilə yaxın yaşadı və ancaq XIX əsrdə Qərb mədəniyyətinin dünyaya hakim olması ilə sonlandı.

Əslində IX əsrdə Göytürk mirası faktiki olaraq iki türk kimliyi arasında bölündü. Ənənəvi türk həyat tərzinə və inancına bağlı türklər ilə İslam coğrafiyası tərkibində və ona qonşu ərazilərdə müsəlmanlaşan türk kimliyi bir-birinə paralel olaraq XIII əsrə qədər varlığını qorudu. Əsas kütləsini oğuzların təşkil etdiyi müsəlman-türklər mərhələli olaraq bir neçə əsrdə bütün Müsəlman Şərqi ələ keçirtdilər və XX əsrin əvvəllərinə qədər coğrafiyanın hakim ünsürü oldular. Azərbaycan və Orta Asiyanın şimalı boyunca uzanan ərazilərə hökm edən türklər isə moğolların ortaya çıxmasına qədər təsirlərini hiss etdirərkən, Çingiz xanın yaratmaq istədiyi dünya nizamının ən güclü müdafiəçiləri oldular və qısa vaxtda moğol uluslarının türkləşməsinə şərait yaratdılar. Ancaq müsəlman və qeyri-müsəlman türklər arasındakı münasibətlər qansız olmadı. Xüsusilə də Sır-dərya və Qafqaz xəttində eyni kimlikli dövlətlər və ittifaqlar arasındakı toqquşmalar yüz ildən çox davam etdi.

Bu əsərin mövzusu Türk xaqanlığının süqutu sonrasında təqribən üç əsrlik dövrdə Avrasiyanın mərkəzi boyunca uzanan geniş ərazilərdə gedən tarixi prosesləri aydınlatmaqdır. Azərbaycan məktəblərində, xüsusilə də universitetlərində oxudulan "orta əsrlər" tarixində bu dövr haqqında demək olar ki, məlumat verilmir. Halbuki, bu dövrdə gedən proseslər aydınladılmadan orta əsrlərin dünyasını və onun siyasi-mədəni, sosial-iqtisadi görüntüsünü təsəvvür etmək qeyri-mümkündür.

Əlinizdəki kitab "Türk xaqanlığı (VI–VIII əsrlərdə Türk Dünyası)" adlı tədqiqatımızın davamı kimi də oxuna bilər. Tədqiq olunan bu mövzu Qədim Türk tarixinin son mərhələsini təşkil edir. Bu tarixdən sonrakı dövr türklərin tarixində yeni bir mərhələnin və fərqli siyasi-mədəni münasibətlərin qurulmasıyla əlamətdardır.

**Əkbər N.Nəcəf**

**ekbernecef@gmail.com**

# GİRİŞ

# VIII ƏSRDƏ TÜRK YURDU VƏ XALQI

## Türk eli və əhalisi

Türklərin VIII əsrdə yayıldıqları coğrafiya şərqdə Koreyadan qərbdə Roma imperiyasına qədər Avrasiyanın mərkəzi boyunca uzanan geniş ərazini əhatə edirdi. Sasani və sonrakı dövr Samani-Qəznəli dövrü farsdilli mətnlər ilə müsəlman coğrafiyaçılarının əsərlərində həmin yerlər *Türk ölkələri*, *Türk yurdları* və ya *Türk eli* adlandırılır. Elmi ədəbiyyatda həmin coğrafiyanın Orta Asiyada qalan hissəsi üçün işlədilən *Türküstan* adı ancaq XVIII əsrdən sonra formalaşıb.

XIX əsrdə Türküstan deyilən həmin ərazilər də fərqli adlar almağa başladı:

- Rusiyanın nəzarəti altına keçən Qərbi Türküstan torpaqlarına *Zakaspia*;
- Mancular tərəfindən işğal edilən, hazırda Çin Xalq Respublikasının nəzarətindəki Şərqi Türküstan *Sinkianq* (Yeni müstəmləkə);

- 1848-ci ildə ingilislərin mütləq nəzarətinə keçən torpaqlarda İndia və Əfqanıstan əraziləri təşkil edildi.

"Türküstan" adı 1924-cü ildən etibarən siyasi ədəbiyyatda işlədilmədi. Onun yerinə rus ədəbiyyatında "Orta Asiya" termini ön plana çıxarıldı. Orta Asiya termini sadəcə Türkmənistan, Qırğızıstan, Özbəkistan və Tacikistanı içinə alır, Qazaxıstanı kənarda buraxırdı. Sovet coğrafiyaşünaslarının əksinə, avropalı tədqiqatçılar Qərbi və Şərqi Türküstan üçün Mərkəzi Asiya termini işlətməyə başladılar. Bu müasir coğrafi adlandırmaların sərhədləri orta əsrlər tarixi diqqətə alındığında qeyri-müəyyən şəkil aldı. Günümüzdə Qərb tarixşünaslığında Mərkəzi Asiya deyildiyində Orta Asiya, Qazaxıstan, Monqolustan, Çinin İç Monqolustanı, Tibet və Şimali Əfqanıstanı əhatə edəcək qədər əraziləri əhatə edir.

Türkiyə tarixşünaslığında həmin ərazilər Şərqi və Qərbi Türküstan olaraq iki hissəyə ayrılır. Şərqi Türküstan günümüzdə böyük nisbətdə Çinin sərhədləri daxilində yer alır. Qədim çincə mənbələrdə bu coğrafiyaya müxtəlif adlar verilirdi. Həmin adlardan ilki *Hsü-yü* olub, mənası "Qərb torpaqları" deməkdir. Bu coğrafi termin Xan sülaləsi dövründə (e.ə. 206–b.e. 220) Tanrı dağlarının cənubundakı Yü-mənin (Yeşim daşı qapısı) qərbindəki əraziləri ifadə etmək üçün ortaya çıxıb. Hunlara aid olduğunu düşündükləri bu coğrafiyanı çinlilər İpək Yolu üstündə təsvir edirlər. Əvvəllər 36 məmləkətin, daha sonra 50-dən çox dövlətin yerləşdiyi bölgə Asiyanın mərkəzi ilə qərbini, Hindistanı, hətta Avropanın şərqi ilə Afrikanın şimalını əhatə edəcək genişliyə sahibdi.

XIX əsrə qədər çincə mənbələrdə istifadə edilən Hsü-yü adı Haneda Torunun araşdırmalarına görə, Pamir dağını mərkəzə alıb sularını Lop-nor gölünə boşaldan Tarım çayı sahilindəki Şərqi Türküstan torpaqlarını, qərbdə Aral gölünə axan Amu-dərya və Sır-dərya çaylarının ətrafındakı vadilər ilə Çu və Talas çayları ətrafındakı əraziləri əhatə edən Qərbi Türküstanı, şimalda Balxaş, İsıq göl və Ala göl ətrafındakı ərazilər ilə İli çayı və Cunqariya hövzəsini içinə alan Tanrı dağlarının bütün şimal bölgələrini, cənubda isə Qaraqorum və Hindiquş dağlarına qədər sahəni içinə alırdı.

Qərb torpaqları haqqındakı məlumatlarını təhlil edən alman sinoloq F.V.Richthodenə görə, Hsü-yün adlanan bölgə "Asiyadakı çayların sularını axıdaraq göl yaratdığı vadiləri, yəni cənubda Tibet təpələrindən başlayaraq şimalda Altay dağı silsiləsinə qədər, qərbdə Pamir təpəsindən başlayıb şərqdə Sarı çayın mənbəyi, Hindiquş dağ silsilələrinə qədər uzanan ərazilər və Pamirin qərbindəki Aral gölü ilə Xəzər dənizinə tökülən çayların ətrafındakı yerləri" əhatə edirdi.

Bu məlumatlar çinlilərin Hsü-yü adlandırdığı Türk torpaqlarının Altaydan Aral gölünə qədər indiki Cənubi Qazaxıstan və Orta Asiyanın mərkəzi və şərqi ilə, indiki Uyğur Muxtar Respublikasının yer aldığı Şərqi Türküstanı əhatə etdiyi aydın olur. Bu geniş ərazi yüksək dağ silsilələri, yaşıl ovalıqları, bozqırları, çölləri ilə türklər üçün ən əlverişli coğrafiya idi. Şərqi Türküstanın cənubunda Qaranlıq və Qaraqorum dağları yer alarkən, həmin dağlar zolağı Ch`inq-xainin qərbindəki dağlar ilə Qansu və

Şansinin cənubundakı dağlara bağlanırdı. Bu ərazini Tanrı dağları cənub və şimal olaraq iki yerə kəsib keçirərək mərkəz boyunca uzanır. Kunlun dağından Qaraqorum və ya Tanrı dağlarını izləyən iki yol şərqdən qərbə doğru uzanaraq Daşkurqanda birləşir. Hər iki dağın kəsişdiyi yerdə dünyanın təpəsi adlanan Pamir dağları yerləşir. Çin mənbələrində Tsunq-linq (Soğan dağları) adlanan bu yer İpək yolunun ana xəttini təşkil edirdi. Həmin xəttin önü heç bir dənizlə kəsilmədən qərbdə İslam dünyasının ortasına qədər uzanır, oradan da Avropa və Şimali Afrikaya keçirdi.

Pamir, Tanrı və Kunlun dağlarının təbii sərhəd təşkil etdiyi ərazinin ortasında bərəkətli Tarım çökəkliyi yer alır. Burası bəzi yaşıl vadiləri ilə diqqəti cəlb edən böyük çöldür. Çölün ətrafı çox sayda sulaq və otlaq yerləri ilə yaşayış məskənlərinə sahibdir. Ərazini suları ilə yaşıllandıran Tarım çayı çölü qərbdən-şərqə qət edərək sularını Lop-nor gölünə buraxır. Tarımın bir hissəsini təşkil edən Turfan ovalığının kənarları yüksək dağlarla əhatələnərkən, ovalığın mərkəzindəki dağlar alçalaraq təpələşir, tam mərkəzə çatdıqda dəniz səviyyəsindən də aşağı enərək böyük bir çökəklik əmələ gətirir.

Şərqi Türküstanın şimalında Altay dağları yerləşir. Altay dağları cənubi-şərqdən şimali-qərbə doğru uzanaraq Tanrı dağları ilə arasında üçbucaq şəklində ovalıq meydana gətirir. Cunqariya ovalığı adlanan həmin ərazi bol otlu sahələrdən əmələ gələn İrtış çayının sahillərini təşkil edir. Zaysan gölünə tökülən çay şərqdən qərbə doğru axır.

Çayın suları daha sonra şimali-qərbə uzanan yolu izləyib Şimal dənizinə çatır.

Tanrı dağlarının şimal yamaclarını İli çayı sulayır. İli mənbəyini Tanrı dağlarından alır və Balxaşa tökülür. İli ovalığı ilə Yoltuz ovalığı bir dağ zolağı ilə ayrılırlar. Çinlilərin Je-xai adlandırdığı İsıq göl burada yerləşir. İsığın şimali-qərbində və Balxaşın cənubunda orta əsrlərdə Türk tarixinin döyünən ürəyi olan Çu və Talas çayları ətrafındakı ərazilər yerləşir.

Tarım ovalığı şərqə doğru açılarkən Qaşqarda ikiyə ayrılır. Cənubunda Yarkənd, Xoten, Keriya, Cürcən (Lopnor) şəklində oturaq sahələri sıralanarkən, şimalda Kuca, Ağsu, Qaraşar kimi bərəkətli sahələr yer alır. Bölgənin ən quraq ərazisi Təkləməkan çölüdür. Oradan Qobiyə qədər uzun çöl zolağı davam edir. Quraqlıqları və soyuq qışı ilə diqqəti çəkən bölgə yerini Qobidə daş və çınqıl ərazilərə buraxır. Təkləməkan çölündə bəzən yüksəkliyi 100–150 m-ə qədər çıxan təpələr var. Tarım ətrafı ərazilər xaricində burada yaşıl torpaq zolağı tapmaq mümkün deyildir. İllik yağış miqdarı 5 mm olan Təkləməkan dünyanın ən quraq çölüdür.

Türk torpaqları bozqırları ilə məşhurdur. Xəzərin şərqində başlayıb Cunqariyaya qədər uzanan bu bozqır sahəsi Şərqi Türküstanın şimali-şərqindən keçərək Qansudan Mancuriyaya qədər ərazini əhatə edir. Şimal çöl sahəsi yayı isti, qışı mülayimdir. İllik yağış miqdarı 15–25 smdir. Ərazi türklərin ana məşğuliyyəti olan at, qoyun, keçi və dəvə saxlamaq üçün əlverişlidir. Bütün bu geniş ərazi ümumilikdə Şərqi Türküstan adlanır.